

**Cavid İSMAYIL**
*tarix üzrə fəlsəfə doktoru*

# Qars müqaviləsinin 100 İLİ:

## Əfsanələr, iddialar və tarixi gerçəklər

***Qars müqaviləsinin imzalanmasından 100 il ötür. 13 oktyabr 1921-ci ildə imzalanmış bu müqavilə bizim üçün həmişə Naxçıvanın təhlükəsizliyinin qarantı sayılıb. Azərbaycanda tarixdən anlayışı olan da, olmayan da bu müqavilədən söz düşərkən həmişə 'Ermənistan Qars müqaviləsinin qorxusundan Naxçıvana yaxın düşə bilməz" söyləyib.***

***Bəs elə isə Qars müqaviləsi nədir? Bu suala cavab vermək üçün əvvəlcə Qars müqaviləsinə aparan yola nəzər salmaq lazımdır.***

### Ermənistanın Naxçıvanı işğal etmək cəhdləri

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Naxçıvan bölgəsində ictimai-siyasi vəziyyət gərginləşmişdi. Azərbaycan sovetləşsə də, qonşu Ermənistan və Gürcüstan hələ bolşevik Rusiyası tərəfindən işğal olunmamışdı. Ermənistanda hakimiyyətdə olan daşnak hökuməti Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdi. Böyük dövlətlərə arxalanan ermənilər Naxçıvana hücumlar edir, şəhər və kəndləri dağıdırdılar. Ağlasığmaz vəhşiliklər və qırğınlar törədən erməni daşnaklar Naxçıvan bölgəsində azərbaycanlıların inadlı müqavimətinə rast gəlmişdilər. 1920-ci il avqustun 10-da 14 dövlətin səlahiyyətli nümayəndəsi tərəfindən Fransanın Sevr şəhərində Müttəfiq Dövlətlər və Türkiyə arasında imzalanan sülh müqaviləsinə əsasən Osmanlı Türkiyəsinin bir sıra ərazilərinin Ermənistana verilməsi, eləcə də 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilədə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzurun Ermənistana güzəştə gedilməsi daşnakların daha da azğınlaşmasına səbəb olmuşdu.

1920-ci ilin yayında Lenin hökuməti ilə danışıqlara başlayan Mustafa Kamal Atatürk ilkin Türkiyə-Sovet razılaşmasını əldə etdikdən sonra Şərq Cəbhəsinin komandanı, general Kazım Qarabəkirə Ermənistana qarşı hücuma başlamaq və 1914-cü ilə aid Osmanlı-Çar Rusiyası sərhədini keçmək əmri verdi. Bu, həm də bütün dünyaya nümayiş etdirməli idi ki, Ankara müttəfiqlərlə Osmanlı hökuməti arasında imzalanmış Sevr müqaviləsini tanımır. Bolşeviklərin bu hücuma razılıq verməkdə məqsədi isə aydın idi: Türkiyənin hücumu qarşısında duruş gətirə bilməyən daşnak hökuməti çökəcək və yerində Sovet Ermənistanı qurulacaqdı.

Kazım Qarabəkir sentyabrın sonlarınadək mühüm sərhəd postlarını və Sarıqamışı tutdu, bundan sonra Qars istiqamətində hərəkətə başladı. 1920-ci il oktyabrın 30-da Qars ermənilərdən azad edildi. Noyabrın 6-da Türkiyə qoşunları Aleksandropolu (indiki Gümrü) tutdular. Dekabrın 2-də Türkiyə ilə Ermənistanın daşnak hökuməti arasında Aleksandropol (Gümrü) müqaviləsi imzalandı. Bu, Türkiyə Böyük Millət Məclisinin bağladığı ilk beynəlxalq müqavilə idi. Müqaviləni Türkiyə tərəfindən Şərq Cəbhəsinin komandanı Kazım Qarabəkir paşa, Ərzurum valisi Hamid bəy və Ərzurum millət vəkili Süleyman Necati bəy, Ermənistan tərəfindən isə sabiq baş nazir Aleksandr Xatisyan, sabiq maliyyə naziri Avram Gülxandanyan və daxili işlər nazirinin müavini Stepan Qordanyan imzalamışdı.

***18 maddədən ibarət müqavilə Türkiyə-Ermənistan müharibəsinə son qoyulmasını və iki ölkənin sərhədlərinin müəyyənləşdirilməsini nəzərdə tuturdu. Türkiyə-Ermənistan sərhədlərinin dəqiqləşdirildiyi ikinci maddədə Türkiyə tərəfinin israrı ilə Naxçıvandan da söz açılmışdı: "Kükü dağı, 10282-8022, Həməsür dağı-8160, Qurdqulaq kəndi, Sayat dağı – 7868, Arpaçay Evləri – 3080, Gömürlü dağı – 6930, Saraybulaq – 8071, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasuyun mənsəbindən keçən zolağın cənubundakı (Naxçıvan, Şaxtaxtı, Şərur) məntəqəyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi əraziyə Ermənistan müdaxilə etməyəcək və bu ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır".***

Ermənistan-Türkiyə müharibəsində daşnakların məğlubiyyəti nəticəsində Türkiyənin regionda hərbi və siyasi nüfuzunun artması Sovet Rusiyasını Ermənistanı tezliklə sovetləşdirməyə məcbur etdi. Qeyd edək ki,bundan 4 gün əvvəl – noyabrın 29-da İrəvanda bolşevik hakimiyyəti elan edilmişdi. Bu səbəbdən Türkiyə ilə Daşnak Ermənistanı arasında imzalanmış Aleksandropol (Gümrü) müqaviləsi heç vaxt qüvvəyə minmədi. Lakin sonradan görəcəyimiz kimi, məhz bu müqavilə Naxçıvanın muxtariyyətinin əsasını qoydu.

### Nərimanovun 1 dekabr bəyanatı və Şahtaxtinskinin dirənişi

Ermənistanda sovet hakimiyyəti qurulduqdan iki gün sonra Sovet Rusiyasının ciddi təzyiqləri ilə Nəriman Nərimanov Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr 1920-ci il tarixli bədnam bəyanatını imzaladı. Bəyanatda deyilirdi: "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın – kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının ayrılmaz hissəsidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir; Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları isə buradan çıxarılır".

Ermənilərin alçaq niyyətlərinə təcrübədə bələd olan Naxçıvan əhalisi bu diyarın Azərbaycandan qoparılmasına qarşı etiraza qalxdı, eyni zamanda, bu bəyanat Türkiyə nümayəndələrinin də etirazı ilə qarşılandı. Vəziyyətin kəskinləşdiyini görən Sovet Azərbaycanının rəhbərliyi görkəmli dövlət xadimi, peşəkar diplomat Behbud ağa Şahtaxtinskini (1881-1924) Naxçıvana göndərdi. Naxçıvana gələn Behbud ağa Şahtaxtinski burada yerləşən türk nümayəndələri ilə birgə Naxçıvanın Ermənistan tərəfindən nəzarətə götürülməsinin qarşısını almaq üçün fəaliyyətə başladı. Onun keçirdiyi mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR-in himayəsində müstəqil sovet respublikası kimi təşkil edilməsi arzusunda olduqlarını bildirdi. Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyən Ermənistan SSR 1920-ci il 28 dekabr bəyanatı ilə Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və Naxçıvana qarşı ərazi iddialarından imtina olunduğunu bəyan etdi. 1921-ci ilin yanvarında keçirilən referendumda (bu referendum məhz heç vaxt qüvvəyə minməyən Aleksandropol müqaviləsində nəzərdə tutulmuşdu) Naxçıvan əhalisinin 90 faizindən çoxu mahalın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi.

***Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri edirdi. Rusiya tərəfi də müəyyən siyasi səbəblərdən Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq Türkiyə tərəfinin təkliflərini, Azərbaycanın bəzi bolşevik rəhbərlərinin mövqeyini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qalır. Şübhəsiz ki, bu məsələdə də Behbud ağa Şahtaxtinskinin fəaliyyəti əvəzsiz rol oynayır. Onun Rusiya Xalq Komissarları Sovetinin sədri Vladimir İliç Leninə göndərdiyi 1 mart 1921-ci il tarixli teleqram-məktubunda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan, Şimali Qafqaz müsəlman xalqlarının milli tərkibi və sayı haqqında məlumat verilir. Şahtaxtinski bu məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən ciddi narahatlığı çatdırır, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə edərək, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər irəli sürür. Bu təkliflər V.İ.Lenini maraqlandırır və o, məsələnin Rusiya K(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş verir.***

(davamı gələn sayımızda)



*Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Naxçıvan bölgəsində ictimai-siyasi vəziyyət gərginləşmişdi. Azərbaycan sovetləşsə də, qonşu Ermənistan və Gürcüstan hələ bolşevik Rusiyası tərəfindən işğal olunmamışdı. Ermənistanda hakimiyyətdə olan daşnak hökuməti Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdi. Böyük dövlətlərə arxalanan ermənilər Naxçıvana hücumlar edir, şəhər və kəndləri dağıdırdılar. Ağlasığmaz vəhşiliklər və qırğınlar törədən erməni daşnaklar Naxçıvan bölgəsində azərbaycanlıların inadlı müqavimətinə rast gəlmişdilər*